# Kitabbağışlama günü

Hələ kiçik yaşlarından etibarən bədii ədəbiyyata marağım olub. Çox həvəslə kitab oxuyurdum. İndi də kitabxanaya getmək mənim üçün böyük sevincdir. Kitab oxumaq fikirlərimi rahat şəkildə bölüşməyimə, maraqlı yazılar yazmağıma, gözəl nitqə sahib olmağıma kömək edir. Yadımdadır, məktəb vaxtı çox mütaliə edən bir nəfər mənə demişdi ki, "mən özümdə olan bütün yaxşı xüsusiyyətlərə görə oxuduğum kitablara borcluyam". Doğrudan da belədir.




Necə ki, almaz cilalanır, eləcə də insan öz mənfi xüsusiyyətlərindən kitablar vasitəsilə azad olmalıdır. Kitab oxuyan hər kəs oxuduğu kitab sayəsində o anı yaşayır, eyni ilə o hiss və həyacanı hiss edir.

14 fevral - kitab bağışlama günüdür. Düzdür mən yaxınlarım tərəfindən çox tez-tez bu şərəfə layiq görülürəm. Yəni sırf insanlara hədiyyə vermək üçün xüsusi bir günü gözləmək düzgün deyil. Hətta bir məqaləmdə qeyd etmişdim ki, insanlar bu sürətlə keçən zaman içində ilin müəyyən günlərini bayram kimi qeyd etməyi düzgün deyil. Əgər insan sağlamdırsa, sevdiyi insanlar yanındadırsa hər gün elə bayramdır.

Mən çox böyük təəssüf hissi ilə deyərdim ki, kitab sevərlərin sayı gündən-günə azalmaqdadır. Gündəlik qayğılar, internetin hər yerdə əlçatan olması və yeni nəslin kitab oxuyanları görməməsi çox tez-tez qarşılaşdığım situasiyalardan biridir. Əksər valideynlər uşaqların dərslərə məsuliyyətsiz yanaşmağından şikayətlənir. Acı gerçək isə budur ki, uşaq evdə kitab oxuyan anaata görmür. Mənim kitab sevər olmağımda anamın rolu çox böyükdür. Uşaq vaxtından şüuraltımda belə bir mənzərə canlanır ki, anam boş vaxt tapan kimi kitab oxuyardı. Yəni əziz valideynlər, uşaqlar sizin güzgünüzdür.

Bu məsələyə digər aspektdən baxsaq görərik ki, kitab oxumaq stressi azaldır. Yəni beyin stress anında, stressə yox birbaşa kitaba yönəlir. Bu zaman diqqətin səmti dəyişdiyinə görə stress əriyir.

Gəlin elə bu gündən özümüzə, yaxınlarımıza kitab bağışlayaq. Əgər oxumaq da çətinlik çəkirsinizsə, sizə məsləhətim bu olardı ki, gündə ən azı beş səhifə ilə kifayətlənməyiniz qənaətbəxşdir. Hər gün beş səhifə ilə kitabın maraqlı hissəsinə gəlib çatacaqsınız. Onda isə kitabı əlinizdən qoymaq istəməyəcəksiniz. Yeni nəslin kitabsevərlərə daha çox ehtiyacı vardır; kitablara diqqətlə yanaşıb onları səliqə ilə saxlayan, oxuduğu kitabları hədiyyə edən mərd insanlara. Bəzən insanların oxuduğu kitabları şəxsi kitabxana yaratmaq üçün heç kimlə paylaşmadığını görürük. Bu, fikrimcə düzgün deyil. Ən gözəl kitabxana, oxuduqlarınızı hədiyyə edərək insanları maarifləndirməkdir.

**Nigar BABAYEVA,**
**Qəmərvan kəndi.**

# Heyrətamiz məlumatlar

Heyvanların orta ömür müddətini əks etdirən maraqlı bir siyahı yayılıb. Siyahı ilk baxışdan sadə görünsə də, bəzi faktlar həm təəccübləndirir, həm də insanı düşündürür. Üstəlik, siyahıda dəqiqləşdirilməyə ehtiyacı olan məqamlar da var.

**Qısaömürlü heyvanlar**

- Ev siçanı – orta hesabla 1-2 il.
- Göyərçin – vəhşi təbiətdə 3-5 il, saxlanıldıqda 10-15 il.
- Kenquru – təxminən 6-8 il (təbiətdə), zooparklarda daha uzun.
- Toyuq – orta hesabla 5-10 il.
- İt – cinsindən asılı olaraq 10-15 il.
- Pələng – təbiətdə 10-15 il, zooparklarda 20 ilə qədər.

**Orta və uzunömürlü heyvanlar**

- İnək – orta hesabla 18-22 il.
- At – 25-30 il, nadir hallarda daha çox.
- Piton – 20-30 il, bəzi hallarda 40 il.
- Oranqutan – 40-50 il.
- Fil – 60-70 il (bəzən daha çox).

**Təbiətin “uzunömürlüləri”**

- Flaminqo – orta hesabla 40-60 il (zooparklarda rekord hallarda daha çox).
- Qalapaqos tısbağası – 100-150 il (dünyanın ən məşhur uzunömürlü canlılarından biri).
- Qrenlandiya balinası (bowhead whale) – 150-200 il (elmi olaraq təsdiqlənmişdir).
- Qrenlandiya qütb köpəkbalığı – 250-400 il (500 il iddiası mübaliğəli hesab olunur).

**Rekord sahibləri – minillik canlılar**

- Nəhəng dəniz süngərləri – 1000-2000 il.
- Qara mərcanlar – 4 000 ilə qədər (Yer üzündə ən uzunömürlü canlı strukturlardan biri).

**Maraqlı nəticə**

İnsan orta hesabla 70-80 il yaşayır. Amma təbiətdə bizdən onlarla, yüzlərlə, hətta minlərlə il uzunömürlü canlılar mövcuddur. Bu fakt bir daha göstərir ki, təbiət öz qanunları ilə işləyir və uzunömürlülük təkcə ölçü və güclə bağlı deyil.


QƏBƏLƏ SƏSİ qəzetinə
2026-cı ilin birinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 20 manatdır.
*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*
*Hesab № AZ29AİİB 400400K9446609778149 VÖEN 4402717261*

# Tarixdə qalan günlər

Yaşadığımız həyatda hər günün özünəməxsus anlamı, xatirəsi var. Əgər hər gün kimlər üçünsə bu xatirələr xatırlanmasa,yəqin ki həyat bayağılaşardı. Axı insanı yaşadan da onların həyatında fərqli günlərin olmasıdır. Bax, bu fərqli günlər insan ömrünü rəngarəng edir və hər gün öz xatirələri ilə bir məna çaları yaradır. Ancaq bu günlərin tarixləşdirilməsi xalqa, dövlətə, xalqın hər bir nümayəndəsinin milli mentalitetinə uyğun olmalı və insanlar üçün maraqlı, əhəmiyyətli bir hadisənin zaman-zaman yaddaşlarda iz salmasına bir mənbə olmalıdır.

Tarixdə qalan günlər öz tarixi funksiyasını, məna dəyərini xalqa məxsus tərzdə ifadə çaları ilə yaddaşlarda qalmalıdır. Arxaikləşmiş məna kəsb etmək heç də tarixləşmək demək deyil. Sadəcə aid olduğu bir xalq üçün arxaikləşməyə bilər, ancaq ümumdünya bir xatirə olaraq yaddaş tarixinə köçə bilməz. Bu hər hansı bir xalqın milli mentalitetinə uyğun olaraq seçilməlidir. Buna görə də hər tarixi günün tam mənası diqqətli və hərtərəfli araşdırılaraq təbliğ olunmalıdır.

**Valentin günü**

Valentin günü Roma imperiyasında 3 gün qeyd olunan Luperkaliya bayramından qaynaqlanan çox qədim ənənədir. Müdriklik və məhsuldarlıq Allahına həsr olunmuş bu bayram fevralın ortalarına təsadüf edərdi və rəsmən baharın başlanğıcı sayılardı. Bu bayram oğlan və onun seçdiyi qız arasında yaşanan sevgiyə həsr olunardı. Sonrakı əsrlərdə kilsə bütbərəst bayramları ləğv etməyə başlayanda bu gün müqəddəs Valentinin xatirəsinə həsr olunmasına çevrilib

İmperator 2-ci Klavdius nikahı qadağan edirmiş, bu isə evli insanlardan məsuliyyətli döyüşçü olmaması ilə əlaqələndirilirdi.

3-cü əsrdə Valentin Roma kilsələrindən birində rahib idi.

O, imperatorun Luperkalla bayramını ləğv etməsinə baxmayaraq gizli şəkildə qızlarla oğlanların ( bir - birini sevən) müvafiq görüşlərini xristianlıq qaydaları ilə guya qanunilәşdirməklə bayrama davam edirmiş. İmperator onun bu hərəkətindən xəbər tutaraq onu zindana atdırır, döydürərək təhqiramiz şəkildə öldürtdürür. Valentin 14 fevral tarixində xristian məzarlığında dəfn olunur. (Bu onun xristianlığı təbliğ etməsinə aid olan versiyadır).

Rahib Valentin həbsxanadan öz yoldaşlarına, xüsusən də keşiş dostu Maiusa "Valentini unutma" və s. sözlərlə yazılmış məktublar və açıqcalar göndərirmiş. O, düşünürmüş ki, nikah Allahın dünya üçün yaratdığı bir nemətdir. Buna görə də o, gizli nikahları təşkil edən tərəqət yaratmışdı.

Valentin günü bir çox açıqcaların, gül və hədiyyələrin bir - birinə göndərilməsi bir çox kommersiya təşkilatları üçün əhəmiyyətli idi. Dünyanın bütün ölkələrində bu kommersiyadan milyonlar qazanılırdı...

Azərbaycanda 31 avqust artıq 26 ildir ki, "Sevgililər Günü" kimi qeyd olunur. Bu 20 Yanvar faciəsi zamanı şəhid olan İlham və həyat yoldaşı Fərizənin İlhamdan sonra özünə qəsd edərək ,onunla eyni gündə dəfn olunması onun sevgisiz yaşaya bilməyəcəyini etiraf, qanlı terrora nifrətini bəyan etməsidir.

**Şəhla XƏLİLQIZI,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**



Təbiətin ağ örpəyi.

# İTMİŞDİR

Qəbələ rayon Nic qəsəbə sakini **Hacızadə Rüfət Nazim oğluna** məxsus Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsi tərəfindən verilmiş **hərbi bileti itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Uludaş kənd sakini **Məhərrəmov Mürşüd Sərdər oğluna** məxsus minik avtomobilinin **texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ rayon Aydınqışlaq kənd sakini **Zakirov Adil Rizvan oğluna** məxsus YuMZ-6L markalı traktorun **texniki qeydiyyat sənədi itdiyi üçün** etibarsız sayılır.

Baş redaktor Azad Məmmədov

TƏSİSÇİ: Azad MƏMMƏDOV

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: 050 318 90 24 (024) 204-19-14
Ümumi: (024) 204-15-56
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyində 05.09.2025-ci il tarixdə DBF71BC4180C07 nömrəli media reyestri şəhadətnaməsi ilə qeydiyyatdan keçmişdir
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az29AİİB 400400K9446609778149 VÖEN: 4402717261 Kod: 200491

«Qəbələ səsi» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində “Azərmedia” MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1000*